Namazdan sonra oxunan dualar :

3 dəfə **əstəğfirullah** deyilir (mənası : Allahım məni bağışla)

“Allahummə əntəs-sələmu və minkəs-sələm, təbarəktə yə zəl-cələli və-likram"

Tərcüməsi : Allahım! Səlam Sənsən və əmin-amanlıq Səndəndir. Ey əzəmət və ehtiram sahibi! Sən xeyirxahsan.

"Allahummə səlli alə Seyyidinə Muhammədin va alə ali Seyyidinə Muhammməd"

Tərcüməsi : Allah'ım! Salam seyyidimiz-böyüyümüz Muhammədə və onun ailəsi üzərinə olsun.

"Sübhənallahi vəl həmdu lilləhi ve lə iləhə illəllahu vallahu əkbər. Ve lə havlə və lə quvvətə illə billəhil Aliyyul Azim"

Tərcüməsi : Allah naqis sifətlərdən uzaqdır. Hamd Allah’adır. Allahdan başqa ilah yoxdur və Allah ən böyüktür. Güc və qüdrət yalnız Allaha məxsusdur.”

Ayətül Kürsü (yəni Bəqərə surəsi, 255) oxunur :
“Allahu lə iləhə illə huvəl-həyyul-qəyyum, la tə`xuzuhu sinətun vələ nəvm, ləhu mə fis səmavati vəl ard, mən zəlləzi yəşfəu indəhu illa bi iznih, ya`ləmu mə beynə əydihim və mə xalfəhum, və la yuhitunə bişəyin min ilmihi illə bimə şəə, vəsiə kursiyyuhus-səmavati vəl-ərdi və lə yəuduhu hifzuhuma və huvəl-əliyyul-əzim.”

Tərcüməsi :
Allahdan başqa heç bir Tanrı yoxdur. (Zatı və kamal sifətləri ilə hər şeyə qadir olub bütün kainatı yaradan və idarə edən, bəndələrini dolandıran və onların işlərini yoluna qoyan) Əbədi, əzəli varlıq Odur. Onu əsla nə mürgi tutar, nə də yuxu. Göylərdə və yerdə nə varsa, hamısı Onundur. Allahın izni olmadan qiyamətdə onun hüzurunda kim şəfaət edə bilər? İnsanların qarşısında olanı da, arxalarında olanı da (dünyanın keçmiş və gələcək hadisələrini) bilir və onlar Onun elmindən Onun istədiyindən başqa heç bir şeyi bilə bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə etmişdir. Onları (göyləri və yeri) qoruyub saxlamaq Onun üçün çətin və yorucu deyildir. O, çox uca və böyükdür.

33 dəfə **Subhənallah** (mənası : Allah nöqsanlardan pakdır)
33 dəfə **Əlhəmdulilləh** (mənası : Allaha həmd olsun)
33 dəfə **Allahu Əkbər** (mənası : Allah ən böyükdür)

“Lə iləhə illəllahu vahdəhu lə şərikə ləh, ləhul-mülku və ləhul-hamdu və huvə alə kulli şey’in qədir"

Tərcüməsi : Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir!

Bu dualardan və zikrlərdən sonra əlimizi açıb öz içimizdən qələn duaları Allaha edə bilərik.